# Korporativ hüquq

Korporativ hüquq - mülki hüququn bir sahəsi olmaqla, kommersiya hüquqi şəxslərin yaradılması və fəaliyyəti ilə əlaqədar əmələ gələn ictimai münasibətləri tənzimləyən hüquqi normalar məcmusudur. Korporativ hüquq anlayışına iki fərqli tərif vermək olar:
1. Geniş mənada, korporativ hüquq - təsərrüfat cəmiyyətləri və ortaqlıqlarının yaradılması və fəaliyyət qaydalarını, hüquqi statusunu tənzimləyən hüquqi normalar məcmusudur.
2. Məhdud mənada, korporativ hüquq - sahibkar və ya kommersiya təşkilatının rəhbərliyi tərəfindən müəyyən edilən və həmin təşkilatın daxili hüquq münasibətlərini tənzimləyən qaydalar sistemidir.

Korporativ hüququn sahə mənsubiyyətinə gəldikdə isə bu barədə mütəxəssislər tərəfindən müxtəlif fikirlər irəli sürülüb. Əsasən mülki və sahibkarlıq hüquq sahəsinə aid edilməklə bərabər, bəziləri tərəfindən hüquq sisteminin müstəqil sahəsi olduğu da qeyd edilir.

**Korporativ hüququn predmeti** - korporativ hüquq münasibətləridir. Korporativ hüquq münasibətləri dedikdə, hüquqi şəxsin yaradılması və fəaliyyəti ilə əlaqədar yaranan və aidiyyəti hüquq normaları ilə tənzimlənən ictimai münasibətlər nəzərdə tutulur. Eyni zamanda, korporativ hüquq münasibətlərinin tərkibinə əmlak münasibətləri ilə yanaşı, təşkilati-idarəetmə münasibətləri də daxildir.

**Korporativ hüququn metodları**: Korporativ hüquq həm mülki hüquqa xarakterik olan xüsusi-hüquqi, həm də sahibkarlıq hüququna xarakterik olan ümumi (publik) hüquqi metodlarla nizamlanır. Klassik mülki-hüquqi münasibətlərdən fərqli olaraq, korporativ hüquq münasibətlərində rəhbərlik və tabe şəxs arasında qeyri-bərabərlik elementi mövcuddur. Nəticə olaraq, korporativ hüququn metodologiyası dispozitiv-imperativ xarakter daşıyır.

**Korporativ hüququn 3 əsas məqsədi mövcuddur:**
1. Təsərrüfat cəmiyyətinin hüquqi statusunun müəyyən edilməsi;
2. Təsərrüfat cəmiyyətinin təşkili qaydalarının müəyyən edilməsi;
3. Təsərrüfat cəmiyyətinin fəaliyyəti qaydalarının müəyyən edilməsi.